**Elmi Şurasının 7 saylı iclasının**
**QƏRARLARI**

1. **2023/2024-cü tədris ilinin payız imtahan sessiyasının nəticələri və yaz imtahan sessiyasına hazırlıq barədə.**
   **Məlumat verir:** Tədris işləri üzrə prorektor, prof. A.F.Qasımov

**Qərar: 1. Tədris işləri üzrə prorektor A.F.Qasımovun 2023/2024 -cü tədris ilinin payız semestrin imtahan sessiyası barədə hesabatı nəzərə alınsın.**
**2. Birinci kurs tələbələrinin aralıq(aylıq) imtahanlarının nəticələrinin keyfiyyətinin artırılması üçün əlavə məşğələ və seminar dərslərinin təşkili və keçirilməsinə diqqətin artırılması fakültə dekanlarının və kafedra müdirlərinin nəzərinə çadırılsın.**
**3. Fakültə dekanlarına, Magisratura mərkəzinin direktoruna və kafedra müdirlərinə tapşırılsın:**
**- 2023/2024-cü tədris ilinin payız semestrinin imtahan sessiyasının yekun nəticələrinin fakültə elmi şuralarında və kafedra iclaslarında ətraflı təhlil olunaraq müzakirəsinin aparılması;**
**- payız semestrində mərkəzləşdirilmiş üsulla keçirilən aylıq balların formalaşması və qeydə alınmış fənlər üzrə keçirilmiş imtahanların nəticələrinin kafedralarda və fakültə elmi şuralarında müzakirə edilməsi, fənni tədris edən hər bir müəllimin fəaliyyəti qiymətləndirilməsi;**
**-təhsilin keyfiyyətinin artırılması və beynəlxalq tələblərə uyğunlaşdırılması istiqamətində zəruri tədbirlər həyata keçirilməsi;**
**- tədrisin praktik komponentinin gücləndirilməsi istiqamətində əlavə tədbirlərin görülməsi və keçirilən fənlərin praktik komponentini gücləndirmək məqsədilə məşğələ və laboratoriya dərslərinin keyfiyyəti artırılması;**
**- tədris prosesində yeni metod və texnologiyaların işlədilməsi dəstəklənsin, bu istiqamətdə seçilən müəllimlərin əməyinin stimullaşdırılması həyata keçirilsin.**
**- daha təcrübəli və keyfiyyətli dərs keçən müəllimlərin təcrübəsindən yaralanmaq üçün gənc müəllimlərin içtirakı ilə açıq dərslərin keçirilməsinə diqqətin artırılması;**
**- yazılı və test üsulu ilə keçirilməsi nəzərdə tutulmuş fənlərin suallarının yenilənməsi və elektron bankında yerləşdirilməsi işləri davam etdirilməsi;**
**- test banklarının təhlil edilməsi və keyfiyyətin yüksəldilməsi işlərinin davam etdirilməsi;**
**5. Yaz semestrin imtahan sessiyasına hazırlıq prosesində (testlərin və yazılı imtahan suallarının hazırlanaraq sistemə vaxtında yerləşdirilməsi, İQB-lərin vaxtında formalaşması və s.) mütəşəkkilliyin artırılması davam etdirilsin.**
**6. Keyfiyyət təminat və monitorinq mərkəzi tərəfindən tədris prosesinin gedişi, açıq dərslərin keçirilməsi, prezentasiyaların keyfiyyəti və təqdimatının monitorinqinin aparılması gücləndirilsin.**
**7. Tİ üzrə prorektorun hesabatı və Elmi Şuranın qəbul etdiyi qərar universitetin bütün fakültələrinə, Magistratura mərkəzinə və aidiyyatı qrumlara göndərilsin.**
**8. Qərarın icrasına nəzarət Tədris işləri üzrə prorektor A.F.Qasımova tapşırılsın.**

2. **Universitetin ölkə və beynəlxalq səviyyələrdə tanınmasının vəziyyəti və qarşıda duran vəzifələr barədə.**
   **Məlumat verir:** Sosial məsələlər və ictimaiyyətlə əlaqələr üzrə prorektor O.Ə.Naqdıyev

**Qərar: 1. Universitetin tanıdılması və müxtəlif istiqamətlərdə əməkdaşlığı inkişaf etdirmək məqsədilə nüfuzlu xarici universitetlərlə elmi-texniki və beynəlxalq əlaqələrin**

qurulması ilə bağlı işlər davam etdirilsin, yeni əməkdaşlıq müqavilələri imzalansın;

2. Beynəlxalq proqramlar və ya ikitərəfli əlaqələr, səfirliklərlə əməkdaşlıq çərçivəsində xarici mütəxəssislərin universitetdə tədris prosesinə cəlbi artırılsın;
3. Akademik və inzibati heyətin beynəlxalq səviyyəli peşəkar inkişaf proqramlarında, ixtisasartırma və mübadilə proqramlarında iştirakı artırılsın, qrant layihələrində iştirakı təşviq olunsun
4. Universitetə əcnəbi tələbələrin cəlbini artırmaq üçün təbliğat-təşviqat işləri gücləndirilsin, yerli və xarici təhsil şirkətləri ilə əməkdaşlıq inkişaf etdirilsin, təhsil sərgilərində iştirak artırılsın;
5. Rəsmi sosial şəbəkə hesabları, azmiu.edu.az saytında və «Study in Azerbaijan» portalında universitet haqqında önəmli bütün xəbər və məlumatlar mütəmadi şəkildə yenilənsin, bütün struktur bölmələr özlərinə aid olan məlumatların 3 dildə yerləşdirilməsini və vaxtaşırı yenilənməsini təmin etsin;
6. Universitet əhəmiyyətli tədbirlər, seminarlar, həyata keçirilən layihələr və digər önəmli hadisələr bütün növ KİV-lər üzərindən geniş ictimaiyyətə təqdim olunsun.
7. Universitetin İKT mərkəzi tərəfindən rəsmi veb saytın günün müasir tələblərinə uyğun fəaliyyətinə mane olan texniki çatışmazlıqlar aradan qaldırılsın, texniki dəstəyin operativliyi təmin edilsin;
8. Universitetin tanıtımı üçün açıq qapı günləri təşkil edilsin, fakültələr və ixtisasları ilə maraqlanan abituriyentlər maddi-texniki baza ilə tanış edilsin; bu prosesdə fakültə dekanlıqları və kafedraların fəal iştirakı tapşırılsın;
9. Beynəlxalq təqvimdə qeyd edilən beynəlxalq günlər və BMT-nin təsis etdiyi günlər, BMT-nin DİM-lərinin təbliği və Azərbaycan Respublikasında 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi ilə bağlı Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Tədbirlər Planına əsasən universitet üzrə xüsusi işçi qrupu yaradılsın, tədbirlər planı təsdiq olunsun və müvafiq kafedraların iştirakı ilə müxtəli tədbirlər təşkil edilsin;
10. Beynəlxalq reytinqlər üçün yaradılmış işçi qrupunun üzvləri mütəmadi olaraq beynəlxalq reytinq cədvəllərinin tələbləri və meyarları barədə məlumatları universitet kollektivinə çatdırsın;
11. Universitetimizin qlobal rəqabətlilik səviyyəsini artırmaq üçün professor-müəllim heyətinin və məzunlarımızın QS və THE reytinq bazaları tərəfindən aparılan sorğularda iştirakı təmin olunsun;
12. Universitetimizin rəqabətlilik səviyyəsini və Dayanıqlı İnkişaf Məqsədlərinə uyğunluğunu artırmaq məqsədilə mövcud siyasət və hesabatlar, illik fəaliyyət planı hər il sistemli və məqsədyönlü şəkildə tərtib edilsin və icrası üzrə strukturlar qarşısında konkret tapşırıqlar qoyulsun;
13. Elmi-tədqiqat mövzularının seçilməsində prioritet istiqamətlərə üstünlük verilsin, laboratoriyaların fəaliyyətinin monitorinqi və optimallaşdırılması həyata keçirilsin;
14. Professor-müəllim heyəti tərəfindən beynəlxalq elmi platformalarda nəşr olunan məqalə və s. elmi əsərlər sırasında BMT-nin DİM-lərinə həsr olunan mövzuların üstünlük təşkil etməsinə diqqət yetirilsin;
15. Qərarın icrasına nəzarət Sosial məsələlər və ictimaiyyətlə əlaqələr üzrə prorektor Orxan Naqdiyevə tapşırılsın.

3. 050636 "Nəqliyyat tikintisi mühəndisliyi", 050617 "İnşaat mühəndisliyi" (bakalavr səviyyəsi üzrə) və 060634 "İnşaat mühəndisliyi" (magistratura səviyyəsi üzrə) ixtisaslarının beynəlxalq proqram akkreditasiyasının keçirilməsi üçün özünütəhlil hesabatının müzakirəsi.

**Məlumat verir:** Nəqliyyat fakültəsinin dekanı, dos. E.N.Yusifzadə

**Qərar:** 050636 "Nəqliyyat tikintisi mühəndisliyi", 050617 "İnşaat mühəndisliyi" (bakalavr səviyyəsi üzrə) və 060634 "İnşaat mühəndisliyi" (magistratura səviyyəsi üzrə) ixtisaslarının beynəlxalq proqram akkreditasiyasının keçirilməsi üçün özünü təhlil komissiyasının hazırladığı hesabat təsdiq edilsin.

4. **Cari məsələlər.**

**4.1.** İqtisadi nəzəriyyə və marketinq kafedrasının müdiri, dos. A.M.Ağayevə fəxri professor adının verilməsi barədə.

**Qərar: 1. İqtisadi nəzəriyyə və marketinq kafedrasının müdiri, dos. Ağayev Asəf Mirzə oğluna Azərbaycan Memarlıq və İnşaat Universitetinin fəxri professoru adı verilsin.**

**2. Fəxri professor adına görə Ağayev Asəf Mirzə oğlunun vəzifə maaşından asılı olmayaraq əmək haqqına 200 manat əlavə olunsun.**

**4.2. 2023/2024-cü tədris ilinin yaz semestrində Universitetimizdə həyata keçirilən "Code For Future" layihəsi barədə.**

**Qərar: 1. "Code For Future" layihəsində iştirak edən tələbələrin mühəndis ixtisasları üzrə cari semestrin proqramındakı iki fənnin və İnformasiya ixtisası üzrə isə dörd fənnin attestasiyasını layihənin sonunda tələbələrin attestasiyasının nəticəsi ilə əvəz olunun.**

**2. Layihənin sonunda attestasiyasının nəticəsi ixtisaslar üzrə aşağıdakı fənlərlə əvəz olunmuş hesab edilsin:**

Memarlıq fakültəsi
III kurs
İxtisas: 050626– " Memarlıq"
1.Azərbaycan dilində işgüzar və akademik kommunikasiya-4kr
2. Materialşunaslıq-3kr
IV kurs
İxtisas: 050306 – " Dizayn"
İstehsalat təcrübəsi-21kr
İxtisas 050659 Şəhərsalma
İstehsalat təcrübəsi-21kr

İnşaat fakültəsi
III kurs
İXTISAS: 050617 - "İnşaat mühəndisliyi"
1. Binaların zəlzələyə davamlığı – 5 kredit
2. Binaların mühəndis kommunikasiya sistemləri – 4 kredit
İXTISAS: 050638 - "Sənaye mühəndisliyi
1.İstehsalın planlaşdırılması– 5 kredit
2.Sənaye ekologiyası– 4 kredit
İXTİSAS: 050623 - "Materiallar mühəndisliyi"
1.Kristalloqrafiya– 4 kredit
2.Mühəndis iqtisadiyyatı– 4 kredit
ST və MKS fakültəsi
III kurs

İxtisas:050619 - "Kommunikasiya sistemləri mühəndisliyi"
1.Politologiya -3 kr.

2.Sənaye müəssisələrinin su təchizatı və kanalizasiyası (6 kr)
İxtisas: 050625 – " Meliorasiya mühəndisliyi"
1. Torpaqşünaslıq (3 kr)
2..İnşaat konstruksiyası (5 kr)
İxtisas: 050606 – "Ekologiya mühəndisliyi"
1. Hidravlika (6 kr)
2.Çay və su anbarlarının rekultivasiyası urbanizasiyası (8 kr)
İxtisas: 050607 – "Elektrik və elektronika mühəndisliyi"
1.Çay və su anbarlarının rekultivasiyası urbanizasiyası (8 kr)
2.Alternativ enerji mənbələri və onlardan istifadə (6 kr)
İxtisas: 050612 – "Neft-qaz mühəndisiyi"
1. Neft-qaz quyularının geofiziki tədqiqatları (3 kr)

2. Neft-qaz qurğularında nasos və komressor stansiyası (7 kr

IV kurs

İxtisas: 050619 – "Kommunikasiya sistemləri mühəndisliyi"
İstehsalat təcrübəsi-21kr
İxtisas: 050612 – "Neft-qaz mühəndisiyi"
İstehsalat təcrübəsi-21kr
İxtisas: 050625 – " Meliorasiya mühəndisliyi"
İstehsalat təcrübəsi-21kr
İxtisas: 050607 – "Elektrik və elektronika mühəndisliyi"
İstehsalat təcrübəsi-21kr
İxtisas: 050606 – "Ekologiya mühəndisliyi"

İstehsalat təcrübəsi-21kr
Nəqliyyat fakültəsi

III kurs
İxtisas 050614 - "Həyat fəaliyyətinin təhlükəsizliyi mühəndisliyi"
1. Azərbaycan tarixi- 5kr. .

2.Metrologiya, standartlaşdırma və sertifikatlaşdırma-4kr.
İxtisas 050710 - "Yer quruluşu və daşınmaz əmlakın kadastrı"

1. Yerquruluşunda iqtisadi riyazi-üsullar və modellər- 7 kr
2. İnformasiya texnologiyaları (Kadastrda kompüter qrafikası)-3 kr
İxtisas 050633 - "Nəqliyyat tikintisi mühəndisliyi"
1.Mülki müdafiə-3 kr.
2. Metrologiya və standartlaşdırma-4 kr.
IV kurs
İxtisas 050612 - "Geomatika və geodeziya mühəndisliyi"
İstehsalat təcrübəsi- 21 kr
İxtisas 050614 - "Həyat fəaliyyətinin təhlükəsizliyi mühəndisliyi"
İstehsalat təcrübəsi- 21 kr
İxtisas 050710 - "Yer quruluşu və daşınmaz əmlakın kadastrı"
İstehsalat təcrübəsi- 21 kr
Mexanika və İnformasiya texnologiyaları fakültəsi
III kurs
İxtisas 050616 – "İnformasiya texnologiyaları"
1. Web sistemləri və texnologiyaları – 7 kredit
2. Süni intellect – 6 kredit
3. İT layihələrin idarə edilməsi – 5 kredit
4. İnformasiya sistemləri – 6 kredit
İxtisas: 050634 – "Proseslərin avtomatlaşdırılması mühəndisliyi"
1. Rəqəmli idarəetmə – 7 kredit
2. İnşaat obyektlərinin texniki diaqnostikası – 5 kredit
İxtisas: 050620 – "Mexanika mühəndisliyi"
1. İnşaat materialları və məmulatları müəssisələrinin mexaniki avadanlıqları – 6kr
2. Maşınların dinamikası – 8 kredit
IV kurs

İxtisas 050616 - "İnformasiya texnologiyaları"
1. İstehsalat (texnoloji) təcrübəsi – 30 kredit
İxtisas: 050620 – "Mexanika mühəndisliyi"
1. İstehsalat (texnoloji) təcrübəsi – 21 kredit

**5. Müsabiqə işləri.**

**Qərar: 5.1. Xəyalə Rəsul qızı Rəsulzadə növbəti seçki dövrünə kimi Azərbaycan dili və pedqogika kafedrasına baş müəllim vəzifəsinə seçilmiş hesab edilsin.**

**5.2. Ruhəngiz Yelmar qızı Məmmədova növbəti seçki dövrünə kimi Azərbaycan dili və pedqogika kafedrasına baş müəllim vəzifəsinə seçilmiş hesab edilsin.**

**5.3. İqtisad elm sahəsinin 5312.01 – Sahə iqtisadiyyatı ixtisası üzrə Cəfərova Rumella Telman qızına dosent elmi adı verilməsi üçün Ali Attestasiya Komissiyası qarşısında vəsatət qaldırılsın.**